# Multikultural Vətənimlə qürur duyuram

**Müasir beynəlxalq münasibətlər sistemində multikulturalizm və tolerantlıq, tarixin, müxtəlif xalqların, etnosların mədəni irsinin öyrənilməsi, tədqiqi mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda multikulturalizm və tolerantlıq, ölkənin çox qədim dövlətçilik tarixinə bağlıdır. Bu proses müstəqillik dönəmində ümummilli liderimiz Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyasının mühüm istiqamətlərindən biridir.**

Ölkəmizdə üç səmavi dinin (islam, xristian və yəhudilik) nümayəndələri tam bərabərhüquqlu və azad fəaliyyət göstərməkdə və yaşamaqdadırlar. Məqsədyönlü dövlət siyasətinin nəticəsidir ki, 2002-ci ilin 22-24 may tarixində Bakıda rəsmi səfərdə olmuş Vatikan Dövlətinin başçısı, dünya katoliklərinin dini rəhbəri Roma papası II İohan Pavel ölkəmizdəki tolerantlıq və dinlərə göstərilən diqqətdən məmnunluğunu bildirmişdir. II İohan Pavel ümummilli liderimizə böyük minnətdarlıqla yaradana dua etmişdir: “Qoy üç böyük din tərəfindən izhar edilmiş bu məhəbbət şahidliyinə görə Allaha həmd olsun!”

“Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi öz fəaliyyətini uğurla həyata keçirir. Müasir qlobal gərginlik şəraitində nümunəvi haldır ki, 9 milyon vətəndaşı olan Azərbaycanda tarixi alban kilsə abidələri, məscidlər eyni zamanda pravoslav və katoliklərin 12 kilsəsi, yəhudilərin 6 sinaqoqu var. Avropanın ən böyük sinaqoqlarından biri 2003-cü ilin mart ayında Bakı şəhərində açılmışdır.

Prezidentimiz İlham Əliyev 2013-cü ilin 24 iyulunda müqəddəs Ramazan bayramındakı iftar mərasimində demişdir: “Müstəqil Azərbaycanın ən böyük sərvətlərindən biri də ondan ibarətdir ki, Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri rahat, bir ailə kimi yaşayırlar, bütün hüquqlardan istifadə edirlər”. Sadalanan faktlara əsaslanaraq bütün bu yüksək keyfiyyətə görə Azərbaycan dünyada çoxdilli, çoxmillətli, çoxdinli demokratik ölkəyə çevrildiyini artıq bütün dünya etiraf edir.

Qərb tədqiqatçısı S.Xantinqton “Sivilizasiyaların toqquşması” əsərində multikulturalizm məsələsinə də toxunaraq qeyd edir ki: “Yalnız “kim” olduğunu biləndən, müəyyənləşdirəndən sonra hər bir xalq yaşayış siyasətini müəyyənləşdirməyə başlayır...” Yəni Azərbaycan hüquqi, milli dövlət olmaqla yanaşı, həm də qloballaşdırıcı dövlət kimi, çoxmillətli, çoxdilli, multikultural, demokratik, azad bir ölkədir. Deməli, Azərbaycanda multikulturalizmin tarixi burada yaşayan xalqların yaşı qədərdir. Multikulturalizmin mövcudluğu ifadəsi dünyanın aparıcı, demokratik ölkələrində formalaşsa da, bu reallıqda belə deyildir. Bu ölkələrin öz siyasətçilərinin də qeyd etdikləri kimi, Böyük Britaniya, Fransa, Almaniya kimi demokratik ölkələrdə multikulturalizm tənəzzülə uğrayıb.

İndi Avropa qaçqınlarla, miqrantlarla üz-üzə qaldığı bir dövrdə, Azərbaycanın 20% torpaqları işğal altındadır və bunun nəticəsində 1 milyondan çox həmvətənləri qaçqın düşmüşdür.

Lakin gənc, müstəqilliyini yeni qazanan ölkəmiz, ulu öndərimizin siyasi dühası hesabına parçalanmadı, yaşadı, ayağa qalxdı. Ona görə də bu gün siyasi, milli faciələr yaşayan Ukraynanın politoloqları qeyd edirlər ki, bizim də Heydər Əliyev kimi liderimiz olsaydı, ölkə parçalanmazdı.

Biz, Avropada təhsil alan tələbə gənclər ölkəmizdəki bu prosesləri fəxarətlə izləyirik. 2016-cı il cənab Prezidentimizin “Multikulturalizm ili” elan etməsi dünyada, o cümlədən Avropada gedən miqrant probleminə laqeyd baxanlara nümunədir. Avropada təhsil aldığımız elm ocaqlarında və universitetlərdə müxtəlif dindən, müxtəlif mədəniyyətlərdən olan tələbə gənclərə böyük həvəslə ölkəmizdən bəhs edirik, onları elimizə-obamıza dəvət edirik.

Bilirsiniz, vətəndən kənarda olanda torpaq sevgisini, vətənə bağlılığın gücünü aydın hiss edir, görürsən. Bu cür yüksək yaşam tərzi ilə dünyada nümunə olan, analoqu olmayan bir ölkənin vətəndaşı olduğunla ürəkdən fəxr edirsən. Bu cür sevinclə, qürurla yaşamaq bir başqa hissdir. Öz vətəninlə qürur duymaq, inanın ən yüksək, ali hissdir...

**Eşqin RÜFƏTLİ,**
**Latviya.**